Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2022, **s. 96-100**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2022, **с. 96-100**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2022, **pp. 96-100**

UOT 78.02

Səbuhi Əliyev
baş müəllim, dissertant
Azərbaycan Milli Konservatoriyası
AZ 1073, Bakı ş., Ələsgər Ələkbərov 7
E-mail: sabuhialiyev13@mail.ru

USTAD TAR İFAÇISI MİRZƏ MANSUR MANSUROV

Açar sözlər: *Azərbaycan, Mirzə Mansur Mansurov, muğam, tar, ifaçılıq, üslub*

Azərbaycan ifaçılıq sənətinin öyrənilməsi musiqişünaslığın mühüm mövzularından biridir. Xalqımızın muğam dünyasını zaman-zaman zənginləşdirən bir çox qüdrətli sənətkarları olub. Musiqi sənətində öz yaradıcılığı ilə yeni yollar, yeni mərhələ açmış ustad sənətkarların həyat və fəaliyyətinin öyrənilməsi həmişə aktual olub, onların tarixi rolunun qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Onların ifaçlıq sənətini araşdırmaq, tədqiq etmək musiqi elminə mühüm yeniliklər gətirəcəkdir. Bu səbəbdən hazırki məqalədə mahir tar ifaçısı Mirzə Mansur Mansurovun yaradıcılığı tədqiq edilir.

С.Алиев

МАСТЕР ТАР-ИСПОЛНИТЕЛЬ МИРЗА МАНСУР МАНСУРОВ

Ключевые слова: *Азербайджан, Мирза Мансур Мансуров, мугам, тар, исполнение, стиль*

Изучение азербайджанского исполнительского искусства является одним из важных предметов музыковедения. В нашей стране было много сильных исполнителей, которые время от времени обогащали мир мугама. Изучение жизни и деятельности мастеров-исполнителей, открывших своим творчеством новые пути и новый этап в музыкальном искусстве, всегда было актуальным и имеет большое значение в оценке их исторической роли. Изучение их исполнительского искусства принесет важные инновации в музыкальную науку. Именно поэтому в данной статье рассматривается творчество искусного тариста Мирзы Мансура Мансурова.

S.Aliyev

MASTER TAR PERFORMER MIRZA MANSUR MANSUROV

Key words: *Azerbaijan, Mirza Mansur Mansurov, mugham, tar, performance, style*

The study of Azerbaijani performing arts is one of the important subjects of musicology. Our nation has had many powerful artists who enriched the mugham world from time to time. Studying the lives and activities of master artists who opened new paths and a new stage in the art of music with their creativity has always been relevant and is of great importance in evaluating their historical role. Investigating and researching their performance art will bring important innovations to music science. For this reason, this article examines the creativity of the skilled tar player Mirza Mansur Mansurov.

Azərbaycan şifahi ənənəli musiqi sənətində müstəsna rolu olan sənətkarlardan biri də Mirzə Mansur Mansurovdur. M.Mansurovun xalq musiqiçilərinin böyük bir nəslinin yetişdirilib tərbiyə edilməsində mühüm xidmətləri olmuşdur. Mirzə Mansur Mansurov ifaçı-tarzənlərin, bəstəkar və musiqişünasların yeni bir nəslinə Azərbaycan xalqının tükənməz muğam sənətini öyrətmişdir.

Milli musiqi sənətinin qiymətli keyfiyyətlərini yaşatmaq və gələcək nəsillərə çatdırmaq Mirzə Mansuru daim düşündürmüş və onun fəailiyyətinin əsasını təşkil etmişdir. O, bunların həllini sənətə yaradıcı münasibətdə görmüşdür.

Klassik ənənələri sədaqətlə davam etdirən Mirzə Mansur Mansurov tarın novatoru və yeni məktəbin yaradıcısı Mirzə Sadıq Əsədoğlunun layiqlı davamçısıdır. Öz sələfinin realist ənənələrini yayan, təbliğ edən Mirzə Mansur eyni zamanda bunları inkişaf etdirməkdə şəxsi səyin nəyə qadir olduğunu sübut etmişdir.

M.Mansurovun ifaçılıq sənətini öyrənməklə həm də onun şəxsində Azərbaycanda müasir tar ifaçılığı məktəbinin yaranması və formalaşması prosesindəki bəzi məsələləri izləmək olar. Bu isə mövzunun aktuallığını göstərən başlıca şərtlərdəndir.

Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Mirzə Sadıq Əsədoğlu, Bülbül, Ələsgər Abdullayev, Qurban Pirimov, Mirzə Fərəc Rzayev kimi görkəmli sənətkarlarda olduğu kimi, M.Mansurovun da ifaçılıq sənətinin kökləri xalq yaradıcılığından alınmışdır. Belə sənətkarların yaratdığı və bizə verdiyi qiymətli keyfiyyətləri

öyrənməklə doğma xalq sənətinin milli ənənələri haqda çox gərəkli olan məlumatı müəyyənləşdirmək olar.

Mirzə Mansurun yaradıcılığını öz müasirləri çox dəyərləndirmişlər. Tanınmış bəstəkar, dirijor Ə.Bədəlbəylinin "musiqi məktəblərində muğam-tar sinfinin ən görkəmli və ən nüfuzlu müəllimi Mirzə Mansurdu..." [1] demişdir ki, bütün bunlar nəzər-diqqətimizi cəlb edir.

Mirzə Mansurun həyat və yaradıcılığına Bakı-Abşeron ifaçılıq məktəbinin təsirini ayrıca göstərməliyik. Bu məktəbin praktikasında olan ənənələrin onun yaradıcılığında necə yer tutması və tarzənin buradakı keyfiyyətlərə münasibətini aydınlaşdırıb üzə çıxarmaq əhəmiyyətlidir. Qeyd etdiyimiz məsələ ilk dəfə olaraq Mansur Mansurovun şəxsində əsaslı olaraq qarşıya qoyulmuşdur.

Tarzən Mansur Mansurov milli ifaçılıq sənətimizin orijinallığını təsdiq edən keyfiyyətləri, buradakı realist, yaşamağa qadir olan ənənələri dərindən bildiyindən və məharətlə ifa etdiyindən geniş dinləyici kütləsi tərəfindən çox sevilirdi.

Müasir dövrdə muğam sənətinə artan marağın nəticəsi olaraq muğam ifaçılarının yaradıcılığı ilə bağlı mövzuların işlənilməsi aktuallıq kəsb etmişdir. Musiqişünaslıqda muğam sənətinin nəzəri əsaslarının araşdırılması daim önə çəkilsə də, muğam ifaçılarının yaradıcılığı bir qədər arxa planda qalır. Halbuki, muğam bir yaradıcılıq prosesi olaraq ifaçılıq problemlərini – ifaçılıq üslubunun və yaradıcı təfəkkürün qovuşmasından meydana gələn müxtəlif cəhətləri özündə cəmləşdirir.

Mirzə Mansur Mansurovun həyat və yaradıcılıq yolu bir sıra mənbələrdə işıqlandırılmışdır. Dövrü mətbuat səhifələrində Mirzə Mansur Mansurova həsr olunmuş müxtəlif insanlar – musiqiçilər və sənətsevərələr tərəfindən yazılmış publisistik məqalələr və xatirələr mövcuddur. Bununla yanaşı, muğam ifaçıları haqqında bir çox alimlərin, sənət adamlarının elmi kitab və məqalələri, publisistik yazıları, xatirələri də zəngin informasiya mənbələridir.

Görkəmli musiqişünas-alim Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti"ndə Mansur Mansurovun həyat və yaradıcılıq yoluna ayrıca oçerk həsr olunmuşdur [1]. Bu oçerk musiqi elmində M.Mansurovun yaradıcılığının tədqiqi, onun muğam ifaçılığındakı xidmətlərinin üzə çıxarılması və Azərbaycan musiqi mədəniyyətindəki rolunun və şifahi ənənəli professional musiqinin inkişafında ifaçılıq və yaradıcılıq fəaliyyətinin əhəmiyyətinin öyrənilməsi baxımından dəyərli mənbədir.

Mövzu ilə bağlı digər nəşrlərdən Firudin Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabında araşdırılan, XIX – XX əsrlərdə yaşayıb-yaratmış tanınmış muğam ifaçılarına həsr olunmuş bir sıra oçerkləri də qeyd edə bilərik [2]. Həmin kitab xalq sənətkarlarının həyat və yaradıcılıq yolu barədə, onların Azərbaycan

şifahi ənənəli musiqisinin inkişafındakı xidmətlərinə dair tarixi bilgilərlə zəngindir.

Heydər Əliyev Fondu tərəfindən çap olunmuş Eldar Mansurovun müəllifi olduğu "Mansurovlar" kitabında Mansurovlar sülaləsi, Mirzə Mansur Mansurovun valideynləri – dövrünün mədəniyyət himayəçisi, muğam məclislərinin təşkilatçısı, görkəmli muğam biliciləri və ifaçıları olan atası Məşədi Məlik Mansurovun, qardaşı Məşədi Süleyman Mansurovun həyat və fəaliyyəti haqqında, Mirzə Mansurun ailəsi və həyatı haqqında maraqlı məlumat öz əksini tapmışdır [3]. Kitabda həmçinin, Bəhram Mansurovun xatirələri də verilmişdir ki, burada qardaşı Mirzə Mansur haqqında fikirlər, dövrün ifaçılıq təcrübəsinə baxışlar yer almışdır.

Bəhram Mansurovun şəxsi arxivində Mirzə Mansurla bağlı maraqlı sənədlər qorunub saxlanmışdır.

Muğam ifaçılığı sənətinə dair ətraflı bilgiləri böyük müğənnimiz Bülbülün məqalə və məruzələrindən əldə edirik [4]. Onun məqalələrində elmi baxımdan maraqlı məlumat diqqəti cəlb edir. O, muğamlarımızın və xalq musiqisinin gözəl bilicisi olmuş, eyni zamanda, folklor nümunələrinin toplanılması, muğamların notlaşdırılmasının təşkili sahəsində xüsusi xidmətlər göstərmişdir. Bu baxımdan tanınmış bəstəkarlar – Tofiq Quliyevin və Zakir Bağırovun Mirzə Mansurun ifasından muğamları nota salaraq ilk dəfə nəşr olunması Bülbülün rəhbərliyi altında həyata keçirilmiş, bu da onun məqalələrində işıqlandırılmışdır [5].

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Ramiz Zöhrabovun (1939-2017) "Muğam" monoqrafiyasında musiqi ifaçılığı sənətinə dair qiymətli elmi mülahizələr öz əksini tapmışdır [6]. Bütün bunlar muğam sənətinin ifaçılıq və janr xüsusiyyətlərinin izahı və muğam ifaçılığının tarixi baxımından araşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Kitabın ayrı-ayrı bölmələrində müəllif Mirzə Mansurun muğam tədrisindəki rolunu dəyərləndirmişdir.

Xalqımızın sevimli sənətkarlarından olan M.Mansurovun Azərbaycan muğam sənətində rolu və mövqeyi böyükdür. Onun həyat və yaradıcılığını təhlil etdikcə muğamların tanınmış bilicisi, görkəmli müəllim və yüksək ustalığa malik bir tarzən M.Mansurovun Azərbaycan ifaçılıq sənətindəki mövqeyinin yüksək olmasının şahidi oluruq.

ƏDƏBİYYAT

1. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. B.: Elm, 1969, 248 s.
2. Şuşinski F.A. Azərbaycan xalq musiqiçiləri. B.: Yazıçı, 1985, 478 s.
3. Mənsurov E.B. Muğam düşüncələrim. B.: İrşad, 1995, 40 s.
4. Bülbül. Seçilmiş məqalə və məruzələri. (Tərtibçilər: İsazadə Ə.İ. və Qasımov Q.A.).

B.: AEA-nın nəşri, 1968, 138 s.
5. Azərbaycan xalq musiqisinin antologiyası. 10 cilddə, III c. Azərbaycan muğamları və rəngləri. B.: 2004, (“Rast” dəstgahı. M.Mansurovun ifasından T.Quliyevin not yazısı; “Zabul” dəstgahı. M.Mansurovun ifasından T.Quliyevin not yazısı; “Dügah” dəstgahı. M.Mansurovun ifasından Z.Bağırovun not yazısı).
6. Zöhrabov R.F. Muğam. B.: Azərnəşr, 1991, 219 s.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.10.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 03.11.2022
Məqalənin çapa qəbul olunma tarixi: 10.11.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.